# Şəffaflıq davamlı inkişafın təmin edilməsində əsasdır

## Dövlətimizin başçısı cənab İlham Əliyev cari il üçün prioritetləri açıqlayarkən bütün iqtisadi və maliyyə sisteminin şəffaflaşdırılmasını vacib amil kimi önə çəkib



Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında daim bu reallığı diqqətə çatdırır ki, Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı iqtisadiyyatımızın dayanıqlı inkişafına, bir sektordan - neft-qaz sektorundan asılı olmamasına imkan verir. Azərbaycanın iqtisadi modelinin unikallığı budur və bu göstəricilər seçilən yolun nə qədər düzgün olmasını bir daha təsdiqləyir. Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, həmçinin iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə Prezident İlham Əliyev bir daha bildirmişdir ki, qeyri-neft sektorunun inkişafı prioritet olmalıdır: "Mən qeyri-neft sektorunun inkişafı haqqında artıq neçə ildir ki, həm deyirəm, həm də praktiki addımlar atılır. Regionların inkişafı, regionlarda infrastrukturun, sosial infrastrukturun yaradılması, yolların, qaz xətlərinin, elektrik stansiyalarının, məktəblərin, xəstəxanaların, kənd yollarının tikintisi, müəssisələrin, iş yerlərinin yaradılması - bütün bunlar son illər Azərbaycan reallıqlarını əks etdirir. Əgər vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün biz ölkə daxilində olan tələbatı heç ödəyə də bilməzdik."

Cənab İlham Əliyevin Nazirlər Kabinetinin hər bir iclasında bu sahəyə xüsusi diqqət yönəldərək, mövcud problemlərin həlli ilə bağlı aidiyyəti orqanlara tapşırıqlarını verməsi, bu sahənin inkişafı ilə bağlı biri-birindən əhəmiyyətli sənədlər imzalaması da sahibkarlığın inkişafının dövlət siyasətinin əsası olduğunu təsdiqləyir. Nazirlər Kabinetinin ötən iclasında da inkişafa mane olan bütün əngəllərin, süni maneələrin aradan qaldırılmasında ictimai nəzarətin gücləndirilməsinin vacibliyi bir daha önə çəkilmişdir: "Əlbəttə, vətəndaşlardan da çox şey asılıdır. Mən dəfələrlə çıxışlarımda vətəndaşlara müraciət edərək onları daha da fəal olmağa çağırmışam. İctimai nəzarət gücləndirilməlidir. İctimai nəzarət olmadan korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə biz qalib gələ bilmərik. Ona görə, dövlət siyasəti, güclü siyasi iradə artıq özünü göstərir və müsbətə doğru dəyişikliklər də var. İnstitusional tədbirlər görülür, islahatlar aparılır və bu mübarizə geniş ictimai dəstəyə də malikdir. Ancaq bu dəstək daha da fəal olmalıdır." İclasda bu məqama da diqqət yönəldilmişdir ki, bir çox hallarda bu süni əngəllər korrupsiya və rüşvətxorluqla bağlıdır: "Korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılmalıdır. Bu mübarizə aparılır. Ancaq deyə bilmərəm ki, biz istədiyimizə tam nail ola bilmişik. Əlbəttə ki, inzibati tədbirlər və cəza tədbirləri tətbiq ediləcək. Bununla yanaşı, sistem xarakterli tədbirlər, institusional islahatlar aparılmalıdır. Çünki görürük ki, inzibati tədbirlər və cəza tədbirləri bir çox hallarda öz səmərəsini vermir, müvəqqəti xarakter daşıyır, bəzi hallarda insanların dəyişməsi o qədər də böyük səmərə vermir. Ona görə, sistem xarakterli islahatlar davam etdirilməlidir, yeni təkliflər verilməlidir və əlbəttə ki, "ASAN xidmət"in təcrübəsi geniş tətbiq edilməlidir."

Qarşıya vəzifə qoyulub ki, Azərbaycan növbəti on ildə inkişaf etmiş, yüksək gəlirli ölkəyə çevrilsin. İqtisadi islahatların dövrün tələbinə uyğunlaşdırılması uğurların davamlılığında əsas rol oynayır. Bunun nəticəsidir ki, Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə ölkəmizin inkişaf modelinin öyrənilməsi və tətbiqinin zəruriliyi önə çəkilir. Bu fikir dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən daim önə çəkilir ki, inkişaf etmiş ölkələri fərqləndirən cəhətlərdən biri iqtisadiyyatın inkişafının əsas göstəricilərindən olan ümumi daxili məhsulun formalaşmasında sahibkarlığın xüsusi yerinin olmasıdır. Hazırda ümumi daxili məhsulun 75 faizi qeyri-neft sektorunda formalaşır. Qeyd etdiyimiz kimi, iqtisadiyyatın şaxələndirilməsi prioritet məsələ kimi öndədir. Regionların malik olduğu potensialdan istifadə etmək məqsədilə imzalanan Dövlət Proqramları və onların uğurlu icrası qeyri-neft sektorunun inkişafını daha da sürətləndirir. Ötən il qeyri-neft sektorunda artımın 8,4 faiz təşkil etməsi bu faktı təsdiqləyir ki, iqtisadiyyatın enerji amilindən asılılığı azalır. Dövlətimizin başçısı bildirir: "Biz islahatları aparmaqla neft-qaz amilindən iqtisadi asılılığımızı böyük dərəcədə aşağı sala bilmişik və gələcəkdə şaxələndirmə, yerli istehsalın, sağlam rəqabətin gücləndirilməsi, investisiyaların cəlb edilməsi sayəsində, əminəm ki, daha da böyük uğurlara çatacağıq."

Qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı kimi dəyərləndirən Prezident İlham Əliyev bildirir ki, Azərbaycanın bütün neft-qazı, təbii ehtiyatları xalqa xidmət etməli, neftdən əldə olunan gəlirlər şəffaf şəkildə və ədalətli bölünməlidir. Cari ilin prioritetləri açıqlanarkən bütün iqtisadi və maliyyə sisteminin şəffaflaşdırılması önə çəkilir: "Bir sözlə, iqtisadi islahatlar dərinləşməlidir. Biz burada inkişaf etmiş ölkələrin müsbət praktikasını mütləq nəzərə almalıyıq. Bizim bütün iqtisadi və maliyyə sistemimiz şəffaflaşdırılmalıdır. Bank sektoru inkişaf etməlidir. Biznes mühiti daha da yaxşılaşdırılmalıdır. İş adamlarına daha da yaxşı şərait yaradılmalıdır. Bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Bu tapşırıqlar yerinə yetirilməlidir. Belə olan halda biz tezliklə müsbət dinamikanı sürətləndirə bilərik." İrəli sürülən tapşırıqların icrası fonunda cari ildə ölkəmizdə iqtisadi inkişafla bağlı heç bir problemin olmayacağına əminlik ifadə edilir. Şəffaflıq müsbət dinamikanın təminatında əsas amil kimi qeyd olunur. Neft gəlirlərinin idarə olunmasında şəffaflığın təmin edilməsi məqsədilə yaradılan Dövlət Neft Fondunun fəaliyyətini bu kriteriya üzrə nümunəvi qurum kimi dəyərləndirən cənab İlham Əliyev hər zaman bu prinsipin digər sahələrdə də qorunmasını qarşıya mühüm vəzifə kimi qoyur. Ölkə Prezidentinin iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə struktur islahatlarının dərinləşdirilməsi ilə bağlı tapşırıqları da şəffaflığın daha yüksək səviyyədə qorunmasına stimul olacaq. Dövlətimizin başçısı İlham Əliyev bildirmişdir: "Bu məsələlərlə bağlı artıq addımlar atılır. Əslində bu, daimi proses olmalıdır. Dövlət orqanlarının strukturu elə olmalı və imkan verməlidir ki, bu orqanlar operativ, çevik siyasət aparsınlar və bu siyasətin çox böyük səmərəsi olsun. Ona görə birbirini təkrarlayan, yaxud da ki, o qədər də lazım olmayan dövlət qurumları ya birləşdirilir, ya da ki, ləğv edilir."

Dövlətimizin başçısı maliyyə intizamının artırılmasından bəhs edərkən bu fikri də önə çəkir ki, büdcə artdıqca məsuliyyət də artmalıdır. Bu məqsəd də qarşıya qoyulur ki, növbəti ilin dövlət büdcəsi ötən ilin dövlət büdcəsindən həm keyfiyyət, həm də kəmiyyət baxımından üstün olmalıdır. Təbii ki, bu, ölkəmizin iqtisadi imkanlarından asılıdır. "Biz iqtisadi fəallığı artırmalıyıq" söyləyən dövlətimizin başçısı İlham Əliyev bu reallığı diqqətə çatdırır ki, gəlirlər azaldıqca investisiya qoyuluşu, dövlət xətti ilə qoyulan investisiyaların həcmi də azalır. Bu da öz növbəsində iqtisadi fəallığı müəyyən dərəcədə aşağı salır. Bunun üçün əlavə tədbirlərin görüləcəyi bildirilir.

Müşavirədə iqtisadi islahatların əsasında əhalinin sosial müdafiəsinin gücləndirilməsinin dayandığı bir daha əsaslı şəkildə diqqətə çatdırıldı. Müqayisəli təhlillər əsasında bu gerçəklik qeyd edilmişdir ki, hansısa ölkə indiki böhran şəraitində əmək haqlarını, pensiyaları artırmır. Ölkə Prezidentinin sərəncamları əsasında müxtəlif sahələrdə çalışanların əmək haqlarının, həmçinin pensiyaların artırılması ölkədə güclü sosial siyasətin təzahürüdür. Cənab İlham Əliyev bildirir: "İndiki şəraitdə bu, nə deməkdir, hesab edirəm ki, bunu izah etməyə ehtiyac yoxdur. İstisna edilmir ki, il ərzində bu məsələyə yenidən baxılacaq. Əlbəttə ki, bu bizim imkanlarımıza bağlı olan məsələdir."

Ölkəmizdə çox genişmiqyaslı sosial siyasətin aparıldığı beynəlxalq səviyyədə də təqdir edilir. Prezident İlham Əliyev bildirir ki, iqtisadi inkişaf güclü sosial siyasətlə tamamlanmalıdır. İnsanların rahat, yüksək rifah şəraitində yaşaması əsasdır. Bu gün paytaxt və bölgələrdə geniş quruculuq işlərinin həyata keçirilməsi də insanlara xidmətin əsas tərkib hissələrindəndir. Dövlətimizin başçısının bölgələrə hər səfəri yeni müəssisələrin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Bölgələr arasında sağlam rəqabət gedir.

Bütün bunlar göstərir ki, ölkəmizin iqtisadi inkişafı yeni keyfiyyət mərhələsinə daxil olub. Yeni mərhələnin əsas məqsədi iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir. Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu məqsədin gerçəkləşməsi üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib. Ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması əsas məsələ kimi öndədir və bu istiqamətlərdə davamlı addımlar atılır. Ölkəmiz, həmçinin bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edən infrastruktur layihələrinin həyata keçirilməsi, antiinhisar tədbirlərinin gücləndirilməsi, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın təsdiqlənməsi, "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərman sahibkarlığın inkişafını daha da sürətləndirir. Bu il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə fermerlərə, iş adamlarına ən azı 250 milyon manat güzəştli kredit veriləcəyini bildirən cənab İlham Əliyev qeyd etmişdir ki, onların da vəsaitlərini nəzərə alsaq iqtisadiyyatın real sektoruna, o cümlədən regionlarda qoyulacaq investisiyaların həcmi təqribən bir milyard manata yaxın olmalıdır.

Beynəlxalq maliyyə qurumlarının hesabatlarında da bu fikir qeyd olunur ki, Azərbaycanın reytinq cədvəlində daha yüksək pilləyə qalxması üçün geniş imkanlar mövcuddur. Qeyd edək ki, son illər inkişaf etmiş bir sıra ölkələrin reytinqləri aşağı salındığı halda "Standart Poors" reytinq agentliyi Azərbaycanın mövcud uzunmüddətli müstəqil kredit reytinqini artırmış, "Fitch Ratings" və "Moodys" reytinq agentliklərinin də Azərbaycan iqtisadiyyatına dair qiymətləndirmələri müsbət olmuşdur. Cənab İlham Əliyevin ötən il sahibkarlığın inkişafına xidmət edən biri-birindən əhəmiyyətli addımları da iş adamları tərəfindən böyük rəğbətlə qarşılandı. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 19 oktyabr 2015-ci il tarixli "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq ( lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərmanı şəffaflığın təminatının həyata keçirilən siyasətin prioritet istiqaməti olduğunu bir daha təsdiqlədi.

Bütün bunlar cənab İlham Əliyevin iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə böyük əminliklə səsləndirdiyi "Azərbaycan iqtisadiyyatının vəziyyəti çox möhkəmdir və müsbətdir" fikrinin təsdiqidir. Ölkə Prezidenti bildirir ki, qarşıya qoyulan vəzifələrin icrasına nail olsaq, Azərbaycan iqtisadiyyatı daha sürətlə inkişaf edəcək, ümumi daxili məhsul artacaq, əhalinin sosial rifah halı daha da yüksək olacaq. Strateji hədəflərə çatmaq üçün iqtisadi imkanlar, maliyyə resursları, konkret icra mexanizmləri mövcuddur.

**Yeganə Əliyeva,**
***"İki sahil"***